

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ *qapısı*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 37 (23.199)

*21 fevral 2019-cu il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Fevralın 20-də Bakıda, Heydər Əliyev Mərkəzində Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev toplantıda iştirak edib.

Tədbirdə Cənub Qaz Dəhlizinin iştirakçısı olan ölkələrin energetika nazirləri və müxtəlif qurumların təmsilçiləri, o cümlədən Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı, Məşvərət Şurasının fəaliyyətdə olan həmsədri Günter Ottinger iştirak ediblər.

Azərbaycan Prezidenti İlham Əliyev toplantıda nitq söyləyib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 20-də Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Günter Ottinger, Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz, ABŞ Dövlət katibinin enerji diplomatiyası üzrə müavininin müşaviri xanım Sandra Oudkirk, İtaliya Respublikasının iqtisadi inkişaf nazirinin müavini Andrea Cioffi, Avropa İnvestisiya Bankının vitse-prezidenti Vazil Hudak və Dünya Bankının Cənubi Qafqaz üzrə regional direktoru xanım Mersi Tembon ilə görüşü olub.




## 2019-cu ilin yanvar ayında Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı



Muxtar respublikada 2019-cu ilin yanvar ayında 168 milyon 313 min 400 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,4 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,3 faiz artaraq 368,9 manata çatmışdır.

* * *

Muxtar respublikada yaranan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 91 milyon 782 min manat dəyərində məhsul istehsal edilmişdir. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

* * *

Vəsait qoyuluşları çərçivəsində 2019-cu ilin yanvar ayında muxtar respublikada bütün maliyyə mənbələrindən əsas kapitala 36 milyon 661 min manat vəsait yönəldilmişdir. Əsas kapitala yönəldilmiş vəsaitin 33 milyon 718 min manatı və ya 92 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2019-cu ilin yanvar ayında 8 milyon 229 min 400 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur. Bu da 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Həmin dövr ərzində diri çəkidə ət istehsalı 2028 tonu, süd istehsalı isə 2005 tonu ötmüşdür. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,1 faiz, süd istehsalı isə 1,6 faiz artmışdır.

2019-cu ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin dəyəri 4 milyon 25 min 700 manat olmuşdur ki, bu da 2018-ci ilin müvafiq dövründəki xidmətlərin dəyəri ilə müqayisədə 2 faiz çoxdur. Bu dövr ərzində mobil rabitə xidmətinin dəyəri 3 milyon 66 min 200 manat təşkil etmiş və bir il öncəyə nisbətdə 2,5 faiz artmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmış, bəhs olunan dövr ərzində muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 3 milyon 158 min 100 manat məbləğində kreditlər verilmişdir ki, bu da bir il öncəki göstəricidən 28,2 faiz çoxdur. Verilmiş kreditlərin 591 min 300 manatı və yaxud 18,7 faizi qısamüddətli, 2 milyon 566 min 800 manatı və yaxud 81,3 faizi uzunmüddətli kreditlər olmuşdur.

Sahibkarlıq fəaliyyətinin davamlı olaraq dəstəklənməsi, yeni istehsal müəssisələrinin yaradılması nəticəsində muxtar respublikada 383 növdə məhsul istehsal olunur ki, bunun da 126 növü ərzaq, 257 növü isə qeyri-ərzaq məhsullarıdır. Hazırda əhalinin 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir. 1 fevral 2019-cu il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 80235-ə çatmışdır ki, bunun da 70625-i və ya 88 faizi aktiv hesablardır. 2019-cu ilin yanvar ayında açılmış 1391 bank hesabının 1382-si aktiv hesablar olmuşdur.

Muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1 fevral 2019-cu il tarixə 1272-yə çatmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmış, 2019-cu ilin yanvar ayında 29 milyon 721 min 400 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın dəyəri 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə artaraq 23 milyon 950 min ABŞ dolları təşkil etmiş, 18 milyon 178 min 600 ABŞ dolları dəyərində müsbət saldo yaranmışdır.

* * *

2018-ci ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqı 433 manat təşkil etmişdir ki, bu da 2017-ci illə müqayisədə 3,1 faiz çoxdur.

* * *

1 yanvar 2019-cu il tarixə muxtar respublika əhalisinin sayı bir il öncəyə nisbətdə 3,3 min nəfər artaraq 456 min nəfəri ötmüşdür.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Maarifləndirici seminarlar keçirilib



Ordubad və Culfa rayonlarında "Dövlət qulluqçularının etik davranış qaydaları" və "Dövlət orqanlarında vətəndaşların müraciətləri və sənədlərlə işin aparılması qaydaları" mövzularında maarifləndirici seminarlar keçirilib.

Seminarlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədr müavini Ümid Qurbanov "Dövlət qulluqçularının etik davranış qaydaları" mövzusunda çıxış edərək bildirib ki, dövlət qulluqçusu etik davranışı, peşəkar fəaliyyəti ilə hüquqi və fiziki şəxslərin dövlət orqanlarına inamını artırmalı və möhkəmləndirməli, dövlət qulluğu vəzifələrinin icrası ilə bir araya sığmayan, onun adına xələl gətirə biləcək, habelə dövlət orqanının nüfuzunu aşağı sala biləcək hərəkətlərə yol verməməlidir.

Sonra Komissiyanın İnformasiya texnologiyaları və proqram təminatı şöbəsinin müdiri Mahir Abbasov "Dövlət orqanlarında vətəndaşların müraciətləri və sənədlərlə işin aparılması qaydaları" ilə bağlı çıxış edib və mövzunu slaydlar vasitəsilə izah edib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar ətraflı cavablandırılıb.

Qeyd edək ki, Kəngərli və Şahbuz rayonlarında da dövlət qulluqçuları üçün seminarlar təşkil olunub.

## Səmərəli kreditləşmə sənayenin inkişafını sürətləndirir

*Davamlı iqtisadi inkişafın mühüm şərtlərindən biri olan səmərəli kreditləşmə muxtar respublikamızda həyata keçirilən uğurlu sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissəsidir. Bu baxımdan region iqtisadiyyatının aparıcı sahəsi olan sənaye üzrə əldə olunmuş nəticələr diqqəti cəlb edir.*

Belə ki, son beş ildə muxtar respublikada yeyinti, yüngül, mebel, metallurgiya, kimya, tikinti olmaqla, 84 sənaye təyinatlı müəssisənin istifadəyə verilməsi nəticəsində hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Sənaye sahəsi üzrə məhsul istehsalının 94 faizinin özəl bölmənin payına düşməsi Naxçıvanda sahibkarlığa göstərilən dövlət dəstəyinin nəticəsində mümkün olub. Son 5 ildə muxtar respublikada sahibkarlığın inkişafı məqsədilə bank və kredit təşkilatları tərəfindən 113 milyon 762 min manatdan artıq kredit verilib ki, bunun 40 milyon 497 min manatı Sahibkarlığın İnkişafı Fondunun payına düşür.

Cari il fevral ayının 16-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ilə muxtar respublikada fəaliyyət göstərən sahibkarların görüşü zamanı müxtəlif sənaye məhsulları istehsalı üzrə fəaliyyət göstərən müəssisələrin də işinin genişləndirilməsi üçün onlara kreditlərin təqdim olunması bu qayğının daha bir ifadəsidir.

**Xəbərlər şöbəsi**

## *"Gənclərdə büdcə savadlılığı"* adlı təlim olub

Naxçıvan Dövlət Universitetinin magistratura üzrə dekanlığında Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzi tərəfindən keçirilən təlimdə əvvəlcə universitetin elmi katibi, dosent Məftun İsmayılov çıxış edib. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası istiqamətində keçirilən tədbirlərin əhəmiyyətindən danışaraq bildirib ki, təlim məşğələləri tələbələrin müvafiq bilik və bacarıqlar əldə etmələri ilə yanaşı, ümumi dünyagörüşlərinin genişlənməsinə, müasir informasiya cəmiyyətində tələb edilən səviyyədə hərtərəfli məlumata sahib olmalarına şərait yaradır.

Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova Mühasibat uçotu və audit, İqtisadiyyat, Menecment, Dünya iqtisadiyyatı ixtisasları üzrə təhsil alan tələbələrin cəlb olunduğu təlim haqqında ətraflı məlumat verərək keçirilən layihənin əhəmiyyətindən danışıb.

Nazirliyin Büdcə şöbəsinin baş məsləhətçisi Ramil Hüseynov "Dövlət büdcəsini anlayaq" mövzusunda hazırlanmış təlim materialı vasitəsilə Azərbaycan Respublikası dövlət büdcəsinin tərtibi, müzakirəsi, təsdiqi, icrası, icrasına nəzarət haqqında ətraflı məlumat verib.

Nazirliyin İqtisadi sahələrin maliyyəsi şöbəsinin aparıcı məsləhətçisi Qənbər Xudiyev "Ailə büdcəsinin tərtibi və onun tətbiqi" adlı çıxışında gənclərdə ailə büdcəsinin effektiv planlaşdırılmasının məqsəd və əhəmiyyəti, ailə büdcəsinin təhlil olunmasının vacibliyi, xərclərin müəyyən edilməsi və təhlili, pulun idarəolunması və xərclərin gəlirlərə uyğun qurulması işlərinin əhəmiyyəti barədə danışıb.

Sonda mövzu ilə bağlı suallar cavablandırılıb. Tələbələrin təlimlə əlaqədar bilik səviyyələrinin yoxlanılması məqsədilə keçirilən interaktiv mərhələdə 4 komanda iştirak edib. Yarışda universitetin "İqtisadiyyat" komandası qalib olub. "Mühasibat uçotu" komandası II, "Menecment" komandası III, "Dünya iqtisadiyyatı" komandası isə IV yerə layiq görülüb. Qaliblərə sertifikatlar, oxunması zəruri olan kitablar təqdim edilib.

**Zeynəb HÜSEYNZADƏ**

***Ümummilli liderimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş ordu quruculuğu siyasəti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, müdafiə qüdrəti durmadan artan Naxçıvan Muxtar Respublikasında yeni hərbi hissələr yaradılır, mövcud hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində mühüm işlər görülür, böyük əhəmiyyətə malik layihələr icra olunur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tez-tez hərbi hissələrdə olması, xidmətin vəziyyəti, əsgərlərin xidmət şəraiti ilə maraqlanması şəxsi heyətdə böyük ruh yüksəkliyi yaratmaqla bərabər hərbi qulluqçularda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olur.***



*Dövlət-xalq-ordu birliyi*

# Ailə təsərrüfatları, sadə vətəndaşlar ordumuzla həmrəylik nümayiş etdirir

Muxtar respublikada dövlət-xalq-ordu birliyinin möhkəm təməli yaradılıb. Naxçıvan əhalisinin, müxtəlif dövlət qurumlarının, müəssisə və təşkilatların, ayrı-ayrı sahibkarlıq subyektlərinin nümayəndələrinin hərbi hissələrə baş çəkərək əsgərlərə sovqat aparmaları artıq ənənə halını alıb. İməciliklər zamanı salınmış meyvə bağlarından toplanan məhsullar hərbi hissələrə təhvil verilir. Bundan əlavə, hərbi hissələrin yardımçı təsərrüfatlarından yığılmış meyvə, tərəvəz və bostan məhsulları da şəxsi heyətin istifadəsinə verilir. Ötən il noyabrın 19-da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən soyuq aylarda şəxsi heyətin infeksion xəstəliklərdən qorunması məqsədilə 6 ton 400 kiloqram sarımsaq Naxçıvan Qarnizonunun bütün birləşmə və hissələrinə təqdim olunub.



Kənd təsərrüfatı ilə məşğul olan ailə təsərrüfatı sahibləri – Şərur rayonunun Aralıq kənd sakini Fizuli





Məhərrəmov, Tumaslı kənd sakini Əhməd Həsənov, Mahmudkənd kənd sakini Ənvər Hüseynov, Dərvişlər kənd sakini Etibar Şahtaxtinski, Sədərək rayon sakini Şirxan Əliyev və Kəngərli rayonunun Şahtaxtı kənd sakini Rüfət İsmayılov da ötən il əldə etdikləri bol məhsuldan Naxçıvan Qarnizonunun birləşmə və hissələrinə sovqat veriblər.

***Şərur rayonunun Sərxanlı kənd sakini Vəli Zamanov*** deyir ki, muxtar



respublikamızda xalq-ordu birliyi bu gün yüksək səviyyədədir. Ali Məclis Sədrinin hərbi hissələrdə olması, əsgərlərimizlə görüşməsi, bayram günlərində onlara hədiyyələr təqdim etməsi, bir sözlə, həmrəylik nümayiş olunması məni çox qürurlandırır. Muxtar respublikamızda hərbi xidmət keçən əsgərlərimizin vaxtilə hansı çətinliklərlə üzləşdiklərini yaxşı xatırlayıram. Şükürlər ki, o günlər arxada qalıb. Bu gün ordumuzun Naxçıvanda olan hissələrində yaradılmış şərait, sözün həqiqi mənasında, ən yüksək səviyyədədir. Daha heç bir valideyn öz övladı sarıdan narahatlıq keçirmir. Təkcə valideynlər deyil, elə insanlarımızın bir çoxu hərbi hissələrdə olur, özünün yetişdirdiyi məhsullardan hərbi hissələrə pay verir. Mən də 2018-ci ildə özümün pay torpağımda yetişdirdiyim məhsuldan hərbi hissələrə pay vermişəm. Bunu ən savab iş sayıram və gələcəkdə də davam etdirəcəyəm. Qeyd edim ki, bunun üçün mənə də hərtərəfli şərait yaradılıb. Özümün 6 hektar torpağım var. 7,3 hektar torpağı isə icarəyə götürmüşəm. Təsərrüfatla məşğul olan insanlara göstərilən qayğının ifadəsidir ki, ötən il 8 hektar kartof əkini sahəsindən 320 ton kartof, 3 hektar soğan əkini sahəsindən 120 ton soğan tədarük etmişəm. Bu ildən arıçılıqla da məşğul olmağa başlamışam. Fevral ayının 16-da Naxçıvan Biznes Mərkəzində sahibkarlarla keçirilən görüşdə mənə inşa etdirdiyim soyuducu anbarın tikintisini başa çatdırmaq üçün 30 min manat kredit verilib. Bu isə imkan yaradacaq ki, fəaliyyətimi daha da genişləndirim.

***Kəngərli rayonunun Şahtaxtı kənd sakini Rüfət İsmayılov*** da ailə təsərrüfatında yetişdirdiyi məhsullardan əsgərlərimizə sovqat ayırmağı özünün vətəndaşlıq borcu sayır:

– Bu gün ordumuzda, onun Naxçıvandakı hissələrində əsgərlərimizin məişət xidməti, qidalanması yüksək səviyyədə təmin olunub. Sərhədlərimizi qoruyan, bizim öz torpaqlarımızda əminliklə çalışmağımız üçün gecə-gündüz ayıq-sayıq dayanan



hərbçilərimizə sovqat aparmağımız onları hərbi xidmətdə daha mübariz olmağa ruhlandırır. Övladlarımız dövlətimizin himayəsindədir. Hər cür təminatları var. Bizim də borcumuz dövlətimizin həyata keçirdiyi siyasəti dəstəkləməkdir. Elə son illər muxtar respublikada xalq-ordu birliyi də bu siyasətin tərkib hissəsinə çevrilib. Valideynlər, hərbi xidmət keçən əsgər və zabitlərimizin yaxınları tez-tez hərbi hissələrə gedir, onlara sovqat aparırlar. Bu da hərbçilərimiz tərəfindən onlara göstərilən qayğı kimi dəyərləndirilir.

Bildiyiniz kimi, indi muxtar respublikamızda ailə təsərrüfatlarının inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Bu qayğıdan yararlanan təsərrüfatçılar müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalına öz töhfələrini verirlər. Biz də bu qayğıdan yararlanaraq ötən il sarımsaq əkininə üstünlük verdik. Şükürlər olsun ki, məhsulumuz da bol oldu. Əldə etdiyimiz bu məhsuldan 2 ton hərbi hissələrdəki əsgərlərimizə sovqat apardıq. İnanırıq ki, növbəti illərdə də bu ənənəni davam etdirəcəyik.

Xalq-ordu birliyini özündə əks etdirən tədbirlərin davamı kimi ötən günlərdə sahibkarlar tərəfindən, ümumilikdə, 5500 kiloqram kənd təsərrüfatı məhsulu əsgərlərə təqdim edilib. Şərur rayonunun Aralıq kənd sakini Əmir Əsədov, Məmmədsabir kənd sakini Əli Rüstəmov və "N" hərbi hissənin giziri Sərvan Məmmədov tərəfindən 3 ton sarımsaq, 1700 kiloqram turp və 800 kiloqram kartof hərbi hissə və sərhəd zastavasına hədiyyə edilib. Əlahiddə Ümumqoşun Ordunun hərbi hissəsində və "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zastavasında şəxsi heyətlə görüş zamanı dövlət qayğısından və xalq-ordu birliyindən danışılıb. Tədbirdə şəxsi heyət adından minnətdarlıq edən hərbi hissənin zabiti Qurban Behbudov əsgərlərin həmvətənlərinin bu qayğısından ruhlanaraq yüksək vətənpərvərlik hissi ilə xidmət etdiklərini qeyd edib. Bildirib ki, sahibkarların əsgərlərə sovqat gətirmələri, onlarla görüşmələri ənənə şəkli almaqla xalq-ordu birliyinin yüksək səviyyədə olduğunun əyani göstəricisidir.

Alınmaz qalamız Sədərək rayonunda da bu məsələ diqqət mərkəzindədir. Ötən günlərdə rayon İcra Hakimiyyəti adından 1 tondan artıq sarımsaq rayon ərazisində yerləşən hərbi hissəyə təqdim olunub. "N" hərbi hissənin əsgəri Əli Abdullayev göstərilən qayğıya görə şəxsi heyət adından Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq edib. Sonra gətirilmiş məhsul hərbi hissələrə təhvil verilib.

***Sədərəkli Şirxan Əliyev*** deyir ki, bu gün muxtar respublikamız blokada şəraitində yaşasa da, qədim diyarımızda ictimai-siyasi sabitlik, inkişaf, əmin-amanlıq təmin edilib. Bunu hər bir sahədə görmək olar. Bu da naxçıvanlıların qurub-yaratmaq əzmini artırır. Həyata keçirilən tədbirlərin hərbi hissələri də əhatə etməsi həm biz valideynlərdə, həm də əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaradır. Düşmənə gözdağı olan Sədərəkdə yaşayan insanların buradakı əsgərlərlə sıx əlaqədə olması da bununla bağlıdır. Bir vaxtlar muxtar respublikanın hər yerindən buraya doğma torpaqlarımızı qorumağa gələnlər bu gün hərbi hissələrdəki vəziyyəti görəndə qürur hissi keçirirlər. Odur ki, onlara öz təsərrüfatımızda yetişdirdiyimiz məhsullardan pay aparmaqdan qürur duyuram.

Sovqat təqdim edilən hərbi hissələrin zabitlərindən Anar Nəbiyev, Elvin Xəlilov, Fariz Sərxanov, Umar Umarov və digərlərinin sözlərinə görə, bu, şəxsi heyət arasında böyük ruh yüksəkliyinə səbəb olub və belə tədbirlər davamlı xarakter alıb. Zabitlərimiz vurğulayırlar ki, əsgərlərin sağlamlıqlarının qorunmasına ciddi fikir verilməsi, yüksək kalorili yeməklərlə qidalanmalarının daim diqqətdə saxlanılması onlara dövlətimizin qayğısı kimi dəyərləndirilir. Bu həmrəylik sovqatlarının verilməsi böyük mənəvi dayaq deməkdir. Çünki dərk edirik ki, dövlət-xalq-ordu birliyi xidmətin uğurlu təşkilində başlıca amildir.

Nümunəvi xidməti ilə komandirlərinə və valideynlərinə başucalığı gətirən əsgərlərimizdən Dönməz Hüseynov, Rəhim Kərimov, Onur Seyidov, Rüad Fərmanzadə bayram və əlamətdar günlərdə ictimaiyyət nümayəndələrinin, mədəniyyət kollektivlərinin onların qonağı olmalarının əsgərlərdə böyük ruh yüksəkliyi yaratmasını dilə gətirərək digər bir amil kimi kənd təsərrüfatı ilə məşğul olan vətəndaşlarımızın əsgərlərlə görüşərək gətirdikləri sovqatı xalqın öz ordusuna böyük sevgisinin nümunəsi, xalq-ordu birliyinin göstəricisi sayırlar.

Muxtar respublikamızda uzun illərdir, davam edən ənənəyə uyğun olaraq məhdud fiziki imkanlı şəxslər tərəfindən hazırlanmış isti qış geyimləri də Əlahiddə Ümumqoşun Ordunun çətin dağlıq şəraitdə xidmət edən əsgərlərinə göndərilir. Ötən il avqustun 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıq və qarşıda duran vəzifələrlə əlaqədar keçirilmiş müşavirədə hərbi hissələr üçün yun corabların toxunması işinin davam etdirilməsi tapşırılıb. Qarşıya qoyulan tapşırığın icrası istiqamətində məhdud fiziki imkanlı 20 qadın tərəfindən toxunmuş yun corab və şərflər əsgərlərimizə hədiyyə edilib. Ümumilikdə isə 2018-2019-cu illərin payız-qış mövsümünə hazırlıqla əlaqədar 2500 cüt yun corab və 200 ədəd yun şərf toxunaraq hərbi hissələrə təhvil verilib.

***Babək rayonunun Babək qəsəbəsində yaşayan Elnurə Nağıyeva*** deyir ki, bu gün Azərbaycan



Ordusunda xidmət edən hər bir gənc bizim övladımızdır. Onların öz borclarını şərəflə yerinə yetirməsi üçün dövlətimizin yaratdığı şəraitə söz ola bilməz. Ancaq biz vətəndaşların əsgərlərə köməyini də vacib sayıram. Çünki Azərbaycan əsgəri dövlətimizin, onun vətəndaşlarının keşiyində ayıq-sayıq dayanıb. Mən də əsgərlərimiz üçün corab toxuyuram. Qürur duyuram ki, övladlarımızın yaxşı xidmət etmələrinə az da olsa, köməklik göstərirəm. Düşünürəm ki, mənim də övladlarım bu gün-sabah əsgər olacaq, bizi qoruyacaq.

***Şərur rayonunun Çərçiboğan kənd sakini Saimə Novruzova*** kiçik yaşlarından corab toxumağı öyrənib. Xəstəlik nəticəsində hər iki gözü



dünya işığından məhrum olub. Ancaq buna baxmayaraq, yenə də corab toxumaqla məşğuldur. Deyir ki, əsgərlərə corab və şərf toxunmasını eşidəndən bu işə həvəsim daha da artıb. Mən də öz imkanlarım səviyyəsində əsgər övladlarımıza kömək etmək qərarına gəldim. Bunun üçün dövlətimiz də mənə qayğı göstərməyə başladı. Bir neçə ildir ki, bu işlə məşğulam. Düşünəndə ki, mənim əməyim qışın soyuğunda, boranında igid eloğullarımızın köməyinə çatacaq bir işə yarayır, onda xeyli sevinirəm.

*Ordumuz hərtərəfli təminata, ən müasir silah-sursata, yenilməz, qətiyyətli və peşəkar şəxsi heyətə malikdir. Xalqla ordu arasında möhkəm əlaqənin, sarsılmaz birliyin ifadəsi olan bu tədbirlər isə şəxsi heyətdə ruh yüksəkliyi yaradır.*

**Nəriman NƏCƏFOV**

## Silahlara nəzarət inspeksiyası keçirilib

Naxçıvan Muxtar Respublikasında yerləşən hərbi hissələrdə silahlara nəzarət inspeksiyası keçirilib.



Danimarka Krallığının rəhbərlik etdiyi, tərkibində ABŞ, Almaniya, Böyük Britaniya və Çexiyadan nümayəndələrin də olduğu, 9 nəfərdən ibarət beynəlxalq inspeksiya qrupu tərəfindən Əlahiddə Ümumqoşun Orduda "Elan olunmuş yer"in inspeksiyası və qiymətləndirilməsi aparılıb. "Avropada adi silahlı qüvvələr haqqında müqavilə", "Təhlükəsizlik və etimad quruculuğu tədbirlərinə dair Vyana sənədi" çərçivəsində döyüş tanklarının, zirehli döyüş maşınlarının, çapı 100 millimetrdən yuxarı olan artilleriya qurğu və sistemlərinin, döyüş təyyarələrinin və zərbə helikopterlərinin sayı yoxlanılıb, əsgər yataqxanalarına, tibb məntəqələrinə və hərbi hissələrin ərazisindəki digər binalara baxış olub.

İnspeksiyanın sonunda beynəlxalq inspeksiya qrupunun və hərbi hissələrin nümayəndələrinə xatirə hədiyyələri təqdim edilib.

Səfər çərçivəsində qonaqlar muxtar respublikanın tarixi abidələrində, görməli yerlərində və Duzdağ Fizioterapiya Mərkəzində olublar.

**N.NƏCƏFOV**



*21 fevral Beynəlxalq Ana Dili Günüdür*

# Dilimiz milli varlığımızdır

*Hər bir xalqı, milləti başqalarından fərqləndirən mühüm amillərdən biri və ən başlıcası onun dilidir. Azərbaycan dili də özünəməxsus zənginliyi ilə başqa dillərdən seçilir. “Dədə Qorqud” və “Koroğlu” dastanlarından gələn dilimiz həzin ana laylası ilə ruhumuza hopmuşdur. XVIII əsrdə Qafqaza səfər etmiş məşhur fransız yazıçısı və səyyahı Aleksandr Düma yazırdı: “Avropada fransız dili necə əhəmiyyətə malikdirsə, Qafqazda da Azərbaycan dili o cür əhəmiyyətə malikdir”. Ulularımızın bizə miras qoyub getdikləri ana dilimiz İmadəddin Nəsimi, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Mirzə Fətəli Axundzadə, Cəlil Məmmədquluzadə, Səməd Vurğun, Üzeyir Hacıbəyli, Məmməd Araz, Hüseyn Cavid və digər görkəmli qələm sahiblərinin əsərlərində daha da zənginləşmiş, böyük sənətkarlarımız yaradıcılıqları ilə Azərbaycan dilinin inkişafına öz töhfələrini vermişlər.*

Dilin müstəqil inkişafı, zənginləşməsi və nüfuzu bilavasitə dövlətçiliklə bağlı olduğu üçün dil dövlətçiliyin ən aparıcı atributlarından biri hesab olunur. Dövlətçilik zəminində dilin cəmiyyətdəki rolu artır, informasiya imkanları genişlənir. 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dilimizi dövlət dili kimi təsdiqləyib. 1936-cı ildən sonra isə Azərbaycan dili rəsmən dövlət dili sayılsa da, bu, formal xarakter daşımış və dövlət idarələrində məhdud çərçivədə işlənmiş, təqiblərə məruz qalmışdır.

Ümummilli liderimiz Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycan dilinin inkişafı istiqamətində məqsədyönlü iş aparmış, mövcud tarixi təcrübəni və müasir dövrün tələblərini nəzərə alaraq mükəmməl dil siyasəti həyata keçirmişdir. Bunun nəticəsidir ki, 1970-ci ildən başlayaraq Azərbaycan dili elmi şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dördcildlik “Müasir Azərbaycan dili” dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə respublikanın dövlət mükafatına layiq görülmüşdü. Dahi rəhbər ana dilimizin 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Ölkəmiz müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsinə zərurət yarandı. Ulu öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra ana dilimizin nüfuzunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparıldı. Ana dilimizin qorunması, inkişaf etdirilməsi, bütün idarə və təşkilatlarda dövlət dili kimi tətbiq edilməsi istiqamətində daha qətiyyətli addımlar atıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Ulu öndərin “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” 2001-ci il 18 iyul və “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin ümummilli liderin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” və “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən latın qrafikalı Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyatlar çap olunaraq ölkə kitabxanalarına paylanılmışdır. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli Sərəncamı ilə “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair” Dövlət Proqramının qəbul edilməsi dövlət-dil siyasətinin bütün parametrlər üzrə həyata keçirilməsinə şərait yaratmışdır. Həmçinin təhsil sahəsində dərsliklərin təkmilləşdirilməsi işi aktuallaşmış, ali məktəblərin texniki ixtisaslarının tədris planına “Nitq mədəniyyəti” fənni daxil edilmişdir.

Ölkə başçısının “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli Sərəncamı və “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” 2018-ci il 1 noyabr tarixli Fərmanı müstəqil ölkəmizdə dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, dilimizə dövlət səviyyəsində göstərilən qayğının daha bir nümunəsidir.

Muxtar respublikamızda da ən ali milli dəyərimiz olan dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, dövlət-dil siyasəti uğurla həyata keçirilir. İstər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Naxçıvan şəhərində ucaldılmış “Ana dili” abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir.

Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə “Oxunması zəruri olan kitabların Siyahısı”nın təsdiq olunması, bədii sözün daşıyıcısı olan dəyərli ədəbi nümunələrin gənclərə tövsiyə edilməsi həm də dilimizin, sözümüzün təbliğinə verilən qiymət kimi dəyərləndirilməlidir. Muxtar respublikada XI əsrdə qələmə alınmış “Qutadqu bilik” mənzum romanının nəşri də böyük mədəni-ictimai əhəmiyyət daşımaqdadır. Bu məqsədyönlü fəaliyyətin nəticəsi olaraq dilimizin tarixinin öyrənilməsi, onun qorunub inkişaf etdirilməsi çərçivəsində Ali Məclis Sədrinin tapşırığı ilə “Dədə Qorqud yurdu Naxçıvan atlası”, “Azərbaycan dilinin Naxçıvan dialektoloji atlası”, “Naxçıvanda “Kitabi-Dədə Qorqud” toponimləri” kimi kitabların nəşri eyni zamanda dilimizin qorunub yaşadılması sahəsində həyata keçirilən tədbirlərin tərkib hissəsi kimi məmnunluq doğurur.

*Dilimizin qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi, hər kəsin vətəndaşlıq borcudur. Hər bir Azərbaycan vətəndaşı öz ana dilini qorumalı, onun mənəvi-siyasi nüfuzunu təkcə ölkə daxilində deyil, bütün dünyada yüksəltməyə çalışmalıdır.*

**Əbülfəz QULİYEV**
***AMEA-nın müxbir üzvü***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş Tədbirlər Planına əsasən Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Naxçıvanımızı tanıyaq” mövzusunda keçirilən bilik yarışının II turunun seçim mərhələsi başa çatıb.*

# Muxtariyyətin 95 illiyinə həsr olunmuş bilik yarışı davam edir



Naxçıvan Şəhər Təhsil Şöbəsi və Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzinin təşkilatçılığı ilə keçirilən yarışda Naxçıvan şəhər 3 nömrəli tam orta məktəbin “Əlincə”, 8 nömrəli tam orta məktəbin “Gəmiqaya”, 10 nömrəli tam orta məktəbin “Nuh yurdu” və Naxçıvan Qızlar Liseyinin “Araz” komandaları iştirak edib. Liseyin “Araz” komandası qalib gələrək finala vəsiqə qazanıb.

Onu da vurğulayaq ki, 6 mərhələdən ibarət olan yarış yanvar ayından başlayaraq ayda bir dəfə olmaqla, Naxçıvan şəhərindəki ümumtəhsil məktəbləri arasında keçirilməkdədir. Yarış seçim mərhələsi və final formatından ibarətdir. Seçim mərhələsi beş turdan ibarət olmaqla, 4 komanda və 20 şagirdin iştirakı ilə keçirilir. Ən yaxşı nəticə göstərən 5 komanda final mərhələsində iştirak etmək imkanı qazanır. Viktorinanın seçim mərhələsinin hər turu test, videoçarxlar formatında olmaqla, 5 mərhələ 32 sual, final mərhələsi isə 40 sualdan ibarətdir. Suallar Naxçıvanın tarixi, coğrafiyası, görkəmli şəxsiyyətləri, tarix-mədəniyyət abidələrinə həsr edilib. Hər sual üzrə düzgün cavab 10 bal intervalında qiymətləndirilir.

Təqdim edilmiş hər bir suala 10 saniyə ərzində verilən cavab etibarlı sayılır. Bir neçə komandanın topladığı ballar eyni olarsa, vaxt baxımından suala daha tez cavab verən komanda qalib hesab edilir.

Final mərhələsində I,II, III və həvəsləndirici yerləri tutan qalib komandalar təşkilatçılar tərəfindən diplom, kubok və hədiyyələrlə mükafatlandırılacaqlar.

**✍ Gülcamal TAHİROVA**

***Allah sizə rəhmət eləsin, böyük ustad Mirzə Cəlil və mollanəsrəddinçilər. Hələ ötən əsrin əvvəllərində dilimizin saflığına ləkə gətirənlərlə bu gün də dəyərini saxlayan yazılarınızla mübarizə aparırdınız. Nə bilərdiniz ki, sovet ideologiyası dilimizə elə ağır zərbə vuracaq ki, bir əsr sonra o zərbədən dağılanları bir yerə toplamaq çox çətin olacaq. 1991-ci ildə müstəqilliyimizi əldə edəndən sonra dilimizin inkişafı ilə bağlı bir neçə sənəd qəbul olundu, ana dili ilə bağlı itirdiklərimiz özümüzə qaytarıldı. Lakin hələ də aramızda rus, son vaxtlarsa daha çox ingilis və türk sözlərindən istifadə etməklə zəngin dilimizin gözəlliyinə xələl gətirənlər var. Bu yaxınlarda şahidi olduğum bir hadisə dahi Mirzə Cəlilin “Bizim “obrazovannı”lar” felyetonunu xatırlatdı və illər əvvəl yazılmış o felyetondan aldığım ruh müasir dövrümüzün bəzi eybəcərliklərini əks etdirən “İkiqat “obrazovannı”lar” adlı felyetonumun yazılmasına səbəb oldu.***

# Bizim “obrazovannı”lar

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm:

– Hardan gəlirsən?

O mənə belə cavab verir:

– Ya xadil na poçtu.

Deyirəm:

– Dünən niyə bizə gəlmədin?

Cavab verir:

– K nam prişli qosti.

Deyirəm:

– Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

– Net, uje bılo pozdno.

Deyirəm:

– Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

– Pastarayus, no slovo ne dayu.

Deyirəm:

– Xudahafiz!

Cavab verir:

– Do svidaniya.

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!..

Axırı bir gün dostumdan soruşdum:

– Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mən ilə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verir:

– Sluşay, kak-to stıdno koqda obrazovannıy çelovek po-tatarski qovorit!.. (yəni obrazovannının müsəlmanca danışmağı eyibdir!).

– Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!..

Deyirlər ki, həmin mənim rəfiqim rus şkolunda oxuyan vaxt bir gün anasına deyib:

– Ana! Pajaluysta, mənə bir şey svarit elə! (yəni bişir!)

Anası cavab verib:

– Bala, nə dedin?

Rəfiqim cavab verib:

– Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

– Bala, nə bişirim?

– Çort eqo znaet!… Yadımdan çıxıb… Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana… Bir cür adı var…

– Bala, küftə deyirsən?

– Hə… hə… qofta, qofta!

***“Molla Nəsrəddin”, 14 aprel, 1906, №2***



***Ay qardaşlar, mən ki dilsiz xəlq olunmamışam, bu dilləri ağzıma soxursuz..***

# İkiqat “obrazovannı”lar

Yaxınlarımdan birinin evində qonaq idim. Ev sahibinin oğlu anasına dedi:

– Ay ana, o pəncərəni aç, çox istidir.

Ana pəncərəni açdı. Bir xeyli vaxtdan sonra oğlan divanda uzandığı halda yenidən:

– Ay ana, sən niyə pəncərəni açmısan?

– Ay oğul, bəs sən dedin də.

– Mən fertuçkanı dedim ki, bir az hava gəlsin.

Ana: – Ay, düz deyirsən, skvazniyak eləyir, indicə kamarı da dolduracaq içəriyə, tamam, qoy pəncərəni örtüm, fortuçkanı açım, deyə pəncərəyə yaxınlaşdı.

Oğlan yenidən səsləndi:

– Ana, ayaqdasan, sən Allah, şarjım bitir, al bu telefonu, adapter otağımdadır, tax toka, bacıya mesaj yazacağam.

Ana telefonu alıb, otağa keçdi və oradan deyindiyini eşitdim:

– Yüz dəfə dedim ki, ay kişi, bir montyor gətir, bu evin tokuna baxdır, hara taxım bu telefonu axı zaryadka yığsın, razetkaların heç biri işləmir.

Ana ilə balanın bu yarı rus, yarı türk dialoqu məni yamanca təbdən çıxardı. Birinci hirsimi oğlana tökdüm, dedim, bizim vaxtımızda valideynin yanında nəinki uzanmaq, hətta onu işə buyurmaq böyük qəbahət sayılardı.

Sonra da üzümü hər ikisinə tutub, siz bilirsiniz ki, səhərdən bəri danışdığınız on sözün səkkizi rus, türk sözləridir, dedim. Hirslə anadan soruşdum:

– Fortuçka nə deməkdir?

– Fortuçka elə fortuçkadır da, balaca pəncərə, sənin də işin qurtarıb ey, bizi sorğu-sual edirsən.

Oğlana üz tutdum:

– Şarj nədir, adapter nədir?

Cavab verdi ki, adapter telefona şarj yığır.

Bu sorğu-sualımı görən ana mənə nə desə yaxşıdır?

– Sənin də sosyeteliyin tutmasın, gəl, çay içək.

Onlara son sözüm belə oldu: Sizi gördüm, bir əsr əvvəl “Molla Nəsrəddin” jurnalında dərc olunan “Bizim “obrazovannı”lar” felyetonunu xatırladım. Hələ felyetonu da onlara söylədim. Axırda da dedim ki, siz lap elə ikiqat obrazovannısınız ki…

**✍ Mətanət MƏMMƏDOVA**

# Burada firavan sabahımız, gələcəyimizin təminatçıları tərbiyə olunurlar



*Muxtar respublikamızda uşaqların əlverişli sosial mühitdə böyüməsi diqqətdə saxlanılır, onların təlim-tərbiyəsinin daha da təkmilləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Müasir uşaq bağçaları istifadəyə verilir, uşaqların fiziki və əqli inkişafı, istedad və bacarıqlarının üzə çıxarılması, asudə vaxtlarının düzgün təşkili daim diqqət mərkəzində saxlanılır. Hərtərəfli infrastruktur yaradılmış məktəbəqədər tərbiyə müəssisələrində uşaqlar unikal şəraitdə böyüyür və məktəb həyatına hazırlanır.*

Yolumuzu ötən günlərdə istifadəyə verilən Naxçıvan şəhərindəki 2 nömrəli uşaq bağçasına salırıq. Məktəbəqədər tərbiyə müəssisəsinə qədəm qoyduğumuz andan buradakı səmimi atmosfer bizdə xoş təəssüratlar yaradır. Bağçanın müdiri Şeyda Əliyeva bizi bu müəssisə ilə tanış edir. O bildirir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin böyük diqqət və qayğısı nəticəsində bağçada balaca fidanların hərtərəfli inkişafı, ilkin təhsil vərdişlərinə yiyələnmələri üçün hər cür şərait yaradılıb. 200 yerlik bağça 4 mərtəbədən ibarətdir. Binada valideynlər və tibb otaqları, 2 oyun zalı, metodik kabinə, dərzi, camaşırxana, mətbəx, bufet, ərzaq anbarı, tədbirlər zalı, tərbiyəçi-metodist və digər otaqlar yerləşir. Burada oxunması zəruri olan kitablardan ibarət guşə yaradılıb. Bağçada hər birində yemək və yataq otağı, mətbəx və oyun zalı olan 3 körpələr, 2 orta, 3 böyüklər və 2 məktəbəhazırlıq qrupları vardır. Uşaqların təlim-tərbiyəsi ilə 20 müəllim, 10 dayə məşğul olur, onlara ilkin oxu və riyazi vərdişləri aşılanır, onların bədii-estetik zövqlərinin formalaşdırılması üçün məşğələlər keçirilir. Maraq dairələrinə uyğun təşkil edilən bu məşğələ və tədbirlər körpə balalarımızın bədii-texniki, fiziki-mənəvi kamilliyini inkişaf etdirməklə yanaşı, dünyagörüşlərini də artırır.





Şeyda müəllimə onu da vurğulayır ki, bağçamız işini islahatlara uyğun yeni metodlar üzərində qurub. Uşaqlar arasında diqqət, hafizə, düşüncə, riyazi təfəkkür, nitqin inkişafı ilə bağlı testlər aparılır, onların intellektual səviyyəsinin formalaşdırılması diqqət mərkəzində saxlanılır.

Balacalara biliklər öyrədən Vüsalə müəllimə bizimlə söhbət zamanı dedi ki, övladlarımız üçün dünyaya pəncərə sayılan bağçalarda bu gün onların hərtərəfli böyümələri, təlim-tərbiyəsinin günün tələbləri səviyyəsində qurulması və sağlamlıqlarının qorunması məqsədilə də lazımi şərait yaradılıb. İstifadəyə verilən uşaq bağçaları, açığını deyim ki, öz müasir görünüşü və təminatına görə vaxtilə fəaliyyət göstərən məktəbəqədər tərbiyə müəssisələrindən müqayisə olunmaz dərəcədə öndədir. Vüsalə müəllimə onu da bildirir ki, uşaqlara Vətən haqqında ilkin biliklər də bağçada öyrədilir. Onlara dövlət atributlarımız – bayrağımız, himnimiz, gerbimiz haqqında məlumat verir, Azərbaycan xəritəsi ilə tanış edirik.

Dayələrdən Sevinc Rzayeva, Nuranə Məmmədova vurğulayırlar ki, bu gün uşaqların ekoloji təmiz yerli məhsullarla qidalanmaları qayğısına da qalınır, istirahət rejiminə düzgün əməl olunmasına xüsusi diqqət yetirilir.



Artıq iş günü başa çatmaqda olduğundan övladlarını götürməyə gələn bir neçə valideynlə də rastlaşıb söhbət edə bildik. Onlar da burada yaradılan şəraitdən ürəkdolusu söhbət açaraq övladlarını məmnuniyyətlə bu məktəbəqədər tərbiyə ocağına etibar etdiklərini söylədilər. Qeyd etdilər ki, bağçalar işləyən valideynlərin yaxın köməkçisidir. Bu gün həmin valideynlər çətinlik çəkmədən müxtəlif fəaliyyət sahələrində çalışırlar. Muxtar respublikada valideynləri işləyən, xüsusi qayğıya ehtiyacı olan ailələrdə böyüyən və sağlamlıq imkanları məhdud uşaqların bağçalara üz tutması da xüsusilə qeyd olunmalıdır. Bu da həmin uşaqların erkən yaşlarında cəmiyyətə inteqrasiyasını təmin edir, onların ailələrinə mənəvi dayaq olur.

“Övladımın bir vaxtlar getdiyi bağçanın binası rütubətli idi, qışda soyuq olur, qarlı-yağışlı havalarda daha pis vəziyyət yaranırdı. Körpələrin nə sağlamlığının, nə də düzgün qidalanmasının qayğısına qalınırdı. Bəzən uşaqlar bağçadan qayıdanda elə ac olurdular ki, bu vəziyyəti görəndə onları bağçaya göndərdiyim üçün özümü qınayırdım. Ancaq indi hər şey yaxşıya doğru tam dəyişilib. Hər tərəfi gül kimi təmiz, kollektivi gülərüz bağçalarda uşaqları rəngbərəng oyuncaqlarla oynayan görəndə ürəyim dağa dönür. Nəvələrim evimiz qədər etibar etdiyimiz müasir bağçalara gedir”, – deyən Validə Məmmədova onu da bildirir ki, bağçada hər bir uşağa valideyn qədər qayğı göstərilir, düzgün tərbiyə edilir. Bu da müstəqil dövlətimizin bu sahəyə diqqət və qayğısının nəticəsidir.

Həmsöhbətimin sözləri keçən əsrin 80-ci illərini, uşaq bağçalarının mənzərəsini gözlərim önünə gətirir, uşaqlıq çağlarım həmin illərə təsadüf etdiyi üçün hansı şəraitə malik bağçalarda tərbiyə edildiyimizi xatırlayıram. Və bu gün bir vətəndaş və valideyn olaraq sevinirəm ki, gələcəyimiz olan uşaqlar dövlətimizin himayəsi altında hər cür şəraitə malik bağçalarda böyüyürlər.

**Ramiyyə ƏKBƏROVA**

# “Qar uçqunlarının nəticələrinin aradan qaldırılması” mövzusunda taktiki-xüsusi təlim keçirilib



*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeli qurumları fövqəladə hallar və digər xoşagəlməz hadisələr zamanı insanların təhlükəsizliyinin təmin edilməsi, fövqəladə hallara çevik reaksiyanın verilməsi, təbii və texnogen mənşəli fövqəladə hallardan (hadisələrdən) zərərçəkənlərin xilas edilməsi üçün müxtəlif taktiki-xüsusi təlimlər və əməli məşğələlər keçirir. Növbəti təlim Şahbuz Dövlət Təbiət Qoruğu ərazisində olub.*

Təlimə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin 14 nəfərdən ibarət xilasedicisi və kinoloqları cəlb edilib. Əsas məqsəd Qusar rayonunun Şahdağ və Qəbələ rayonunun Tufandağ İstirahət mərkəzlərində Avstriyadan gəlmiş mütəxəssislərin iştirakı ilə təlim keçmiş xilasedicilərin qazandığı bilik və bacarıqları öyrətmələridir. Eyni zamanda dağ şəraitində qar sürüşməsi zamanı kinoloqların xüsusi təyinatlı itlər, eləcə də qar uçqunları zamanı istifadə olunan xüsusi təyinatlı “Biper” aparatı və şuplar vasitəsilə xilasedicilərin axtarış-xilasetmə və digər təxirəsalınmaz işlərin aparılmasıdır.

Təlimin gedişində şərti olaraq dağlarda qar uçqununun yaranması ilə qar altında qalmış insanların axtarışının həyata keçirilməsi üçün bölmələr hadisə rayonuna yürüş keçirərək onlara hərəkət marşrutlarının qardan təmizlənməsi və hərəkətin bərpa olunması məşq etdirilib. Hadisə yerinə çatan xilasedicilər və kinoloqlar ərazinin vizual kəşfiyyatını aparıb, daha sonra təhlükəsizlik qaydalarına əməl etməklə qar uçqunu altında qalmış insanların axtarışını həyata keçirərək onların yerlərini müəyyənləşdirib. Axtarışın nəticələri barədə qrup rəhbərlərinə məruzə ediblər.

Növbəti mərhələdə zərərçəkənlərin xilas edilməsi işləri alpinist avadanlıqlarının və digər şans alətlərinin köməyi ilə aparılıb, donvurmadan zərərçəkənlərə ilk yardım göstərilib, onların yaxınlıqdakı xəstəxanaya təxliyəsi həyata keçirilib.

Təlim uğurla başa çatdırılıb, qarşıya qoyulmuş məqsədlərə, əsasən, nail olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Mənim ana dilim

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən “21 fevral – Beynəlxalq Ana Dili Günü” ilə bağlı 11-21 fevral 2019-cu il tarixlərdə ümumtəhsil məktəblərində “Ana dilimizi sevək, qoruyaq” mövzusunda dəyirmi masalar təşkil olunub, ana dilimizin zənginliyi, onun yaşadılması və təbliğ edilməsi barədə şagirdlərə geniş məlumat verilib. Fevralın 20-də isə şəhər və rayonlarda ümumtəhsil məktəblərinin şagirdləri arasında “Mənim ana dilim” mövzusunda inşa yazı müsabiqəsi keçirilib. İnşa yazı müsabiqəsində, ümumilikdə, 252 şagird iştirak edib.

Qaliblərə diplomlar verilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Heydər Əliyev adına Hərbi Lisey

## *2019-2020-ci tədris ilində namizəd qəbulu elan edir*

***Ümumi müddəalar:***

Təlim dili: Azərbaycan dili

Təhsil forması: əyani

Təhsil müddəti: 2 il

Yaş həddi: Cari ildə ümumtəhsil müəssisələrinin 9-cu sinfini bitirmiş, 15 sentyabr 2019-cu ilə qədər 15 yaşı tamam olan və 17 yaşı keçməyən oğlanlar qəbul olunurlar.

Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmaq istəyən namizədlər 01.03.2019-cu il tarixdən 01.04.2019-cu il tarixədək Hərbi Lisey rəisinin adına ərizə ilə müraciət etməlidirlər.

***Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:***

1. Tərcümeyi-hal
2. Doğum haqqında şəhadətnamənin və şəxsiyyət vəsiqəsinin surəti (məktəb direktoru tərəfindən təsdiq olunmuş)
3. Oxuduğu orta məktəbdən təsdiq olunmuş (məktəb direktoru tərəfindən) sənədlər
4. Xasiyyətnamə
5. Oxuduğu sinfin 1-ci yarımilinin qiymət cədvəli
6. Qeydiyyat (yaşayış) yerindən ailə tərkibi haqqında arayış
7. 4 ədəd rəngli fotoşəkil (baş geyimsiz, 3x4 santimetr ölçüdə)
8. Valideynlərin və ya onları əvəz edən şəxslərin dövlət notariusunda təsdiq olunmuş razılıq ərizələri
9. Burunətrafı boşluqların rentgenoqrafiyası
10. Döş qəfəsinin rentgenoqrafiyası
11. Sakit vəziyyətdə və fiziki yükdən sonra EKQ
12. Qanın ümumi analizi, qan qrupu və rezus-faktor
13. Qanın QİÇS və sifilisə görə seroloji reaksiyalara aid müayinələrinin nəticələri
14. Qanın hepatit C və hepatit B-yə aid müayinələrinin nəticələri
15. Sidiyin ümumi analizi
16. Nəcisdə helmintlərin yumurtalarının müayinəsinə aid tibbi sənəd
17. Dizenteriya qrupuna aid müayinə, əsnəkdən və burundan difteriya çöplərinin aşkar edilməsi üçün müayinə
18. Psixonevroloji, Narkoloji, Vərəm, Dəri-zöhrəvi dispanserlərdən (kabinetlərdən) qeydiyyatda olub-olmaması haqqında arayışlar
19. Xroniki və son 12 ay ərzində keçirdiyi yoluxucu və parazitar xəstəliklərə görə dispanser qeydiyyatda olması haqqında məlumatlar, ambulator xəstənin tibbi kartı, (keçirilmiş peyvəndlər haqqında məlumat), stasionar xəstənin tibb kartından çıxarışlar, rentgenoqramlar, xüsusi müayinə metodlarının protokolları və vətəndaşın səhhətini xarakterizə edən digər tibbi sənədlər (məktəblinin tibbi kartı – forma № 26/U).

Naxçıvan Muxtar Respublikasında yaşayan və Hərbi tibb fakültəsinə, Müdafiə Nazirliyinin xüsusi təyinatlı ali təhsil müəssisələrinə qəbul olmaq arzusunda olan namizədlər Heydər Əliyev adına Hərbi Liseyə müraciət etməlidirlər.

Şəxsiyyət vəsiqəsi (doğum haqqında şəhadətnamə) namizəd tərəfindən şəxsən təqdim olunur.

***Hərbi Liseyə qəbul 2 mərhələdə keçirilir:***

***1-ci mərhələdə*** bütün hərbi təhsil müəssisələrinə qəbul olmaq istəyən namizədlər Heydər Əliyev adına Hərbi Liseydə hərbi həkim komissiyasından keçməlidirlər. Hərbi həkim komissiyasından müvəffəqiyyətlə keçmiş namizədlərə dövlət test imtahanlarına buraxılış vərəqəsi verilir. Hərbi həkim komissiyasının tarixi sənəd qəbulu vaxtı bildiriləcək.

***2-ci mərhələ*** Dövlət İmtahan Mərkəzində təşkil edilir.

Abituriyentlər I qrup üzrə Azərbaycan dili, riyaziyyat, fizika və kimya fənlərindən Azərbaycan dilində test imtahanı verirlər.

Namizədlər Heydər Əliyev adına Hərbi Liseyə Dövlət İmtahan Mərkəzi tərəfindən təqdim olunmuş siyahılar əsasında qəbul edilirlər. İmtahanın tarixi əlavə olaraq bildiriləcək.

***Qeydlər və çatışmazlıqlar***

1. Yaşı ötən və ya yaşı çatmayan namizədlərin sənədləri təqdim edilməsin
2. Qeydiyyatı və yaşayışı eyni ünvan olan namizəd ailə tərkibini göstərməklə bir arayış təqdim edə bilər
3. Fotoşəklin arxa tərəfində namizədin soyadı, adı, atasının adı yazılsın və zərfə qoyulsun
4. Rentgenoqrafiyanın rəyi yazılmış şəkildə təqdim edilsin
5. Sənədlər ağ kağız şəxsi iş üçün qovluqda faylın içində göstərilən ardıcıllıqla düzülməli və qovluq üzünün aşağı hissəsində abituriyentin soyadı, adı və atasının adı yazılmalıdır
6. Naxçıvan Muxtar Respublikasında yaşayan və hərbi təhsil müəssisəsinə qəbul olmaq arzusunda olan namizədlər Heydər Əliyev adına Hərbi Liseyə müraciət etməlidirlər.

***Sənədlər 01.03.2019-01.04.2019-cu il tarixlərdə saat $9^{00}$-dan $18^{00}$-dək (saat $13^{00}$-dan $15^{00}$-dək nahar fasiləsi) qəbul olunacaq.***

***Naxçıvan şəhərindən kənarda yaşayan namizədlərdən sənədləri nahara qədər, Naxçıvan şəhərində yaşayanlardan isə nahardan sonra təqdim etmələri xahiş olunur.***

***Əlaqə telefonları: 544-00-15, 544-00-16***

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 143